AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Avqust 2019

# M ü n d ə r i c a t

FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 3
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 4
Buğdanın Rusiya Federasiyasında qiyməti ........ 7
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 8
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 9
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 10
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 11
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 13
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 14
Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 17
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 18
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 19
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 20
Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 21
Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 23
Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal ........ 24
Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 24
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 27

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

***(FAO-nun 5 Sentyabr 2019-cu il tarixli açıqlaması)***

***FAO-nun Qlobal Ərzaq Qiyməti İndeksi avqust ayında bir qədər aşağı düşmüşdür.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2019-cu ilin avqust ayında orta hesabla 169.8 bənd təşkil edib, iyul ayı ilə müqayisədə 1.1% (1.9 bənd) **az**, ötən ilin avqust ayı ilə müqayisədə isə 1.1% (2.0 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** avqust ayında orta hesabla 157.6 bənd təşkil edib, iyul ayı ilə müqayisədə 6.4% (10.8 bənd), ötən ilin avqust ayı ilə müqayisədə isə 6.6% (11.1 bənd) **azdır.**
- **Bitki Yağlarının Qiymət İndeksi** avqust ayında orta hesabla 133.9 bənd təşkil edib, iyul ayı ilə müqayisədə 5.9% (7.5 bənd) **çox,** ötən ilin avqust ayı ilə müqayisədə isə 3.1% (4.2 bənd) **azdır**.
- **Ət Məhsullarının Qiymət İndeksi** avqust ayında orta hesabla 179.8 bənd təşkil edib, iyul ayı ilə müqayisədə 0.5% (0.9 bənd), ötən ilin avqust ayı ilə müqayisədə isə 7.8% (13.0 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** avqust ayında orta hesabla 194.5 bənd təşkil edib, iyul ayı ilə müqayisədə 0.5% (1.0 bənd) **çox**, ötən ilin avqust ayı ilə müqayisədə isə 0.8% (1.6 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** avqust ayında orta hesabla 174.8 bənd təşkil edib, iyul ayı ilə müqayisədə 4.0% (7.3 bənd) **az**, ötən ilin avqust ayı ilə müqayisədə isə 11.1% (17.5 bənd) **çoxdur**.







**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

*(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 12 Sentyabr 2019-cu il tarixli hesabatı əsasında hazırlanıb)*

- 2019/20-ci məhsul ili üzrə qlobal buğda istehsalı həcminin 766 milyon ton olacağı proqnozlaşdırılır ki, bu da son zamanların ən yüksək göstəricisidir.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2017/2018 | 2018/2019 | 2019/2020 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 262 | 282 | 277 |
| | İstehsal | 762 | 731 | 766 |
| | Cəmi təklif | 1024 | 1013 | 1043 |
| **TİCARƏT** | İdxal / İxrac | 182 | 173 | 181 |
| **TƏLƏB** | Ərzaq və toxum | 596 | 596 | 607 |
| | Yem | 146 | 139 | 149 |
| | Cəmi istifadə | 743 | 735 | 756 |
| **İLİN SONUNA QALIQ** | | 282 | 277 | 287 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %*** | | ***38.0*** | ***38.0*** | ***38.0*** |

**Mənbə:** www.uswheat.org

- Qlobal miqyasda məcmu təklifin həcm göstəricisinin 2018/19-cu məhsul ili ilə müqayisədə 30 milyon ton artaraq 1043 milyon ton olacağı təxmin edilir.

- Dünya buğda ticarətinin 181 milyon ton olacağı proqnozlaşdırılır ki, bu göstərici son 5 ilin orta göstəricisi ilə müqayisədə 3.0% çoxdur.

- 2018/2019-cu məhsul ilinə nəzərən cari məhsul ilində əsas buğda ixracatçısı olan ölkələrdə ixrac edilə bilən buğdanın həcminin 2.9% artaraq 213 milyon ton olması proqnozlaşdırılır.

- Dünyada buğda üzrə istehlakın 2019/20-ci məhsul ili üzrə 756 milyon ton olacağı proqnozlaşdırılır ki, bu da son zamanların ən yüksək göstəricisidir.

- Proqnozlar reallaşacağı təqdirdə qlobal buğda ehtiyatlarının həcminin 2018/19-cu məhsul ili ilə müqayisədə 3.6% artaraq 287 milyon ton olacağı gözlənilir. Buna uyğun olaraq, dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi də 38.0% səviyyəsində olacaq.
- Çində buğda ehtiyatlarının həcminin 2019/20-ci məhsul ili ilə müqayisədə 4.3% artaraq 146 milyon tona çatması gözlənilir.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıqların həcminin 63 milyon tona düşməsi, istehsal həcminin isə 2018/19-cu məhsul ili ilə müqayisədə 22 milyon ton çox olacağı gözlənilir. Bununla da, əsas ixracat ölkələri üzrə ümumi təklif səviyyəsi 13 milyon ton çox olacaq.
- Qara dəniz regionu ölkələri qrupu üzrə istehsal həcminin 3.2% artaraq 128 milyon ton olması, ixracın isə 2.3 % azalaraq 59.6 milyon ton olması proqnozlaşdırılır.




Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.




**Mənbə:** [www.uswheat.org](www.uswheat.org)

- **2016-2018-ci illər ərzində buğdanın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında buğdanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 8.8% azalaraq 149.4 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices

# Buğdanın Rusiya Federasiyasında qiyməti

- Son 1 il ərzində Rusiyadan ixrac edilən buğdanın qiymətində əsasən azalma trendi müşahidə olunmuşdur. 2019-cu ilin avqust ayında 1 ton buğdanın qiyməti əvvəlki aya nisbətən 0.4% artaraq 196.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.
- 2018-ci ilin avqust ayından etibarən Rusiyanın daxili bazarında buğdanın qiymətində müşahidə olunan artım 2019-cu ilin aprel ayından azalma trendi ilə əvəz olunmuşdur. 2019-cu ilin avqust ayında 1 ton buğdanın qiyməti əvvəlki aya nisbətən 8.8% azalaraq 168.8 ABŞ dolları olmuşdur.
- 2019-cu ilin avqust ayı ərzində Qara dəniz və Azov dənizi portlarında buğdanın 1 tonunun qiyməti müvafiq olaraq 192.0 ABŞ dolları ilə 198.0 ABŞ dolları və 177.0 ABŞ dolları ilə 181.0 ABŞ dolları arasında dəyişmişdir.




Mənbə: http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic




Mənbə: https://www.apk-inform.com/en/prices

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Arpanın dünya bazarı qiymətində 2016-2018-ci illər ərzində artım trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında arpanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 13.9% azalaraq 110.3 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- Düyünün dünya bazarı qiymətində 2016-2018-ci illərdə artım trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 4.7% artaraq 414.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qarğıdalının dünya bazarı qiymətində əsasən artım müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2018-ci ilin avqust ayından müşahidə olunan qeyri-stabillik 2019-cu ilin iyun ayından etibarən azalma trendi ilə əvəz olunmuş, 2019-cu ilin avqust ayında qarğıdalının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 13.7% azalaraq 163.6 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

**Dünya üzrə pambıq balansına əsasən 2019/20-ci məhsul ili ərzində pambığın istehsalında və təklifindəki artımla yanaşı, qlobal ehtiyatlarda da 2018/19-cu məhsul ili ilə müqayisədə bir qədər artım müşahidə olunmuşdur. Çinin pambıq ehtiyatlarında azalma müşahidə olunduğuna baxmaraq digər ölkələrdəki artım qlobal ehtiyatlarda artıma gətirib çıxarmışdır. Həmçinin, dünya pambıq istehsalında müşahidə olunan artım da qlobal ehtiyatlardakı artıma səbəb olmuşdur.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*)**

| Milyon ton | 2014/2015 | 2015/2016 | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 proqnoz |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 21.8 | 23.2 | 19.6 | 17.5 | 17.6 | 17.5 |
| **İstehsal** | 26.0 | 20.9 | 23.2 | 27.0 | 26.0 | 27.3 |
| **Təklif** | 47.7 | 44.2 | 42.9 | 44.4 | 43.6 | 44.8 |
| **Fabrik istehlakı** | 24.4 | 24.7 | 25.3 | 26.7 | 26.3 | 26.8 |
| ***İlin sonuna qalıq*** | 23.3 | 19.6 | 17.5 | 17.6 | 17.5 | 18.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | 95.2% | 79.6% | 69.1% | 66.1% | 66.6% | 67.0% |

**Cədvəl 2. Çinin pambıq balansı**

| Milyon ton | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 proqnoz |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 12.3 | 10.0 | 8.3 | 7.7 |
| **İstehsal** | 5.0 | 6.0 | 6.0 | 6.0 |
| **Təklif** | 18.4 | 17.2 | 16.4 | 16.1 |
| **Fabrik istehlakı** | 8.4 | 8.9 | 8.6 | 8.7 |
| ***İlin sonuna qalıq*** | 10.0 | 8.3 | 7.7 | 7.3 |
| ***Qalıq/İstehlak nisbəti*** | 119.1% | 92.4% | 89.7% | 84.0% |

**Cədvəl 3. Çin daxil olmadan dünya pambıq balansı**

| Milyon ton | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 proqnoz |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.3 | 7.5 | 9.4 | 9.7 |
| **İstehsal** | 18.3 | 21.0 | 19.9 | 21.3 |
| **Təklif** | 25.6 | 28.5 | 29.3 | 31.1 |
| **Fabrik istehlakı** | 16.9 | 17.8 | 17.7 | 18.1 |
| ***İlin sonuna qalıq*** | 7.5 | 9.4 | 9.7 | 10.6 |
| ***Qalıq/İstehlak nisbəti*** | 41.6% | 49.2% | 49.3% | 52.1% |

**Mənbə**: http://www.cottoninc.com/corporate/Market-Data/MonthlyEconomicLetter/

- 2016-2018-ci illər ərzində pambığın dünya bazarı qiymətində artım trendi müşahidə olunmuşdur. Aylıq trendə əsasən 2019-cu ilin avqust ayında pambığın 1 kq-nın dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 6.3% azalaraq 1.57 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında xam ipəyin qiymətində son bir il ərzində əsasən azalma trendi müşahidə olunmuşdur. 2019-cu ilin avqust ayında 1 ton xam ipəyin qiyməti 0.4% azalaraq 54.61 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2019-cu ilin avqust ayı ərzində xam ipəyin 1 tonunun qiyməti 53.5 min ABŞ dolları ilə 54.47 min ABŞ dolları arasında dəyişmişdir.**




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-week--.html

## Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında son bir il ərzində quru baramanın qiymətində də əsasən azalma trendi müşahidə olunmuşdur. 2019-cu ilin avqust ayında quru baramanın dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 0.6% artmışdır. Həftəlik trenddə isə 2019-cu ilin avqust ayı ərzində quru baramanın 1 tonunun qiyməti 16.78 min ABŞ dolları ilə 17.05 min ABŞ dolları arasında dəyişmişdir.**




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html




**Mənbə:** *http://www.sunsirs.com/uk/sdetail-week--.html*

## Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında günəbaxan yağının qiymətində 2016-2018-ci illər ərzində ciddi azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında günəbaxan yağının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.5% azalaraq 908.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində yaşıl çayın dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında yaşıl çayın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 6.44% artaraq 257.8 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində zeytun yağının dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. 2019-cu ilin yanvar ayından başlayan zeytun yağının dünya bazarı qiymətindəki azalma avqust ayında da davam etmişdir. 2019-cu ilin avqust ayında zeytun yağının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 1.9% azalaraq 3.1 min ABŞ dolları səviyyəsinə çatmışdır.**







**Mənbə***:* https://www.imf.org/en/Research/commodity-prices

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində şəkərin dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. Son 1 il ərzində 1 kiloqram şəkərin dünya bazarında qiyməti 0.23 ABŞ dolları ilə 0.29 ABŞ dolları arasında dəyişmişdir. 2019-cu ilin avqust ayında şəkərin 1 kiloqramının qiyməti isə əvvəlki ay ilə müqayisədə bir qədər azalaraq 0.26 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices

# Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində soyanın dünya bazarı qiymətində kəskin azalma müşahidə olunmuşdur. 2019-cu ilin fevral ayından etibarən qeydə alınan azalma iyun ayında artım ilə əvəzlənsə də avqust ayında soyanın 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 3.3% azalaraq 314.6 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.imf.org/en/Research/commodity-prices](https://www.imf.org/en/Research/commodity-prices)

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində mal ətinin dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə bir qədər azalaraq 4.54 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices

# Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində qoyun ətinin dünya bazarı qiymətində dayanıqlı artım trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında qoyun ətinin 1 kq-ın dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 8.9% azalaraq 2.42 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**




**Mənbə**: https://www.imf.org/en/Research/commodity-prices

# Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illər ərzində donuz ətinin dünya bazarı qiymətində qeyri-müəyyənliklər müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında donuz ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 4.5% artaraq 1.67 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.imf.org/en/Research/commodity-prices*

## Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında 2016-2018-ci illər ərzində quş ətinin qiymətində artım müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2019-cu ilin avqust ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 1.7% azalaraq 2.52 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.imf.org/en/Research/commodity-prices

## Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-ci ildə qaba yunun 1 tonunun dünya bazarı qiyməti əvvəlki illərlə müqayisədə kəskin şəkildə artaraq 1519.2 ABŞ dolları olmuşdur. 2019-cu ilin avqust ayında qaba yunun 1 tonunun dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 2.5% azalaraq 1,337.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.imf.org/en/Research/commodity-prices

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

- **2015 və 2016-cı illərdə ABŞ, Avropa İttifaqı və Yeni Zelandiyada süd xammalının bazar qiymətlərində 2014-cü ilə nəzərən kəskin azalma trendi müşahidə olunmuşdur. 2017-ci ildə süd xammalının qiymətində yenidən artım başlasa da, 2018 və 2019-cu illərdəki qiymət 2014-cü il ilə müqayisədə kəskin şəkildə aşağıdır. Aylıq trenddə isə 2019-cu ilin iyul ayında süd xammalının dünya bazarında sahədən satış qiymətində Avropa İttifaqında və Yeni Zelandiyada azalma qeydə alınsa da, ABŞ-da artım müşahidə olunmuşdur.**




**Mənbə**:https://www.clal.it/en/index.php




**Mənbə**: https://www.clal.it/en/index.php?section=latte_usa

- **Süd xammalının dünya bazarı qiymətindəki azalma trendi quru südün dünya bazarı qiymətində də özünü göstərmişdir. Belə ki, 2015 və 2016-cı illərdəki azalma trendi 2017-ci ildən etibarən artım ilə əvəz olunsa da, 2014-cü ildəki qiymət səviyyəsinə çatmamışdır. Aylıq trenddə isə 2019-cu ilin iyul ayında ABŞ-da quru südün 1 tonunun dünya bazarı qiymətində artım olsa da, Avropa İttifaqında quru südün qiymətində azalma qeydə alınmışdır.**




**Mənbə**: https://www.clal.it/en/index.php




**Mənbə**: https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

- **2016-2018-ci illərdə dünya bazarında kalsium fosfatın və potassium xloridin qiymətində azalma trendi, diamonium fosfatın, üçqat super fosfat və karbamidin qiymətində isə əsasən artım trendi müşahidə olunmuşdur. 2019-cu ilin avqust ayında əvvəlki ay ilə müqayisədə diamonium fosfatın, kalsium fosfatın və üçqat super fosfatın qiymətində azalma, karbamidin qiymətində artım, potassium xloridin qiymətində isə stabillik müşahidə olunmuşdur.**

**2016-2018-ci illər və 2019-cu ilin aprel-avqust ayları ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, *ABŞ dolları/ton***




**Mənbə:** *http://www.indexmundi.com/commodities/?commodity=potassium-chloride*
*http://www.indexmundi.com/commodities/?commodity=dap-fertilizer*
*http://www.indexmundi.com/commodities/?commodity=rock-phosphate*
*http://www.indexmundi.com/commodities/?commodity=triple-superphosphate*
*http://www.indexmundi.com/commodities/?commodity=urea*